## *ƏN UCA HEYDƏR ƏLİYEV*

***Bir neçə cəsur insanın 2004-cü il***

***Qafqazın ənböyük zirvəsindən birini –***

***Heydər Əliyev zirvəsini***

***ziyarət etməsi münasibətilə***

Şevçenko söyləyib öləndə məni,
Basdırın ən uca, hündür məkanda.
Baxanda görünsün gözəl yrdumuz,
O gözəl Ukraynam elə o anda.

Vəsiyyət etmədən,  anda vermədən,
Zirvəyə yüksəldi dahi bir insan.
Dağları boran, qar, çovğun alsa da,
İşin avand olar nə zaman ansan.

Heydər zirvəsinə olmazdı çatmaq,
Ruhu kömək oldu alpinistlərə.
Qoca Qafqazın o, başında durub,
Hey baxır ən yaxın , uzaq ellərə.

Yerlə asimanın tən ortasında,
Dayanan bir insan nə bəxtiyardır.
Bir üzü Tanrıya, bir üzü xalqa,
Yönələn bir insan nə bəxtiyardır.

Çox şükür, Tanrının mərhəmətinə,
Dağlar onu almış bu gün qoynuna.
Yaxşı ki, hər yerdən görünür Qafqaz,
Bütün dünya rəhmət diləyir ona.

Ən yüksək, ən uca Heydər Əliyev,
Qərar tutub başı qarlı zirvədə.
Həmişə vüqarlı, əzəmətlidi,
Üz tutub yanına getsək nə vədə.

Vahid, əziz qardaş, sənə min alqış,
Nə yaxşı sən oldun uca zirvədə.
Qafqazın ən yüksək Heydər zirvəsin,
Gözlərin olaydım, görəydim mən də.

***13 yanvar 2004.***

***Kamal Fərhadoğlu***

***Dağlarda nisgilli bir ağım qaldı. – B. : E.L. , 2008. – S.12-13.***